# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

(Əvvəli 6-cı səhifədə).

sərrüfatının suvarma suyu ilə təminatı üçün suvarma kanalları 320 min kub/metr lildən, daşqın və selə qarşı mübarizə məqsədilə 516 min kub/metr çay məcrası daş və qumdan təmizlənmiş, 175 kub/metr qabion bəndi qurulmuş, 1.230 kub/metr daş beton, 30 kub/metr daş bəndi cari təmir edilmişdir.

Əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və əhalinin içməli su tələbatının ödənilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2019-cu il tarixli sərəncamına əsasən rayonun Nic qəsəbəsində, Yeni Dizaxlı, Kürd, Həmzəli, Zirik və Bılıx kəndlərində yeni subartezian quyuları qazılmışdır.

2019-cu ilin ötən 6 ayı ərzində Vəndam qəsəbəsində inşa edilən gülçülük istixanası kompleksində, Qəbələ şəhərinin içməli su və kanalizasiya sisteminin yenidənqurulması layihəsində, rayon mərkəzi xəstəxana kompleksində, Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidən qurulması obyektində və Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbinin binasında tikinti işləri davam etdirilmişdir.

Şəhərin İmadəddin Nəsimi, Xurşidbanu Natavən, Gənclər, Fazil Rəhimov, Məhəmməd Füzuli, Mirəli Qaşqay, Nəsrəddin Tusi və Şəhriyar küçələrinə 22835 kv.m asfalt örtük çəkilmişdir.

Qəbələ bələdiyyəsi tərəfindən şəhərin 5 küçəsinə 6030 kv.m asfalt örtük çəkilmişdir. Asfalt örtüyün çəkilişi davam etdirilir.

Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin qarşısındakı parkda təmir işlərinə başlanılmış və hazırda bu istiqamətdə işlər davam etdirilir.

**Hörmətli tədbir iştirakçıları!**

2019-cu ilin birinci yarısı ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmışdır. Rayonumuzda 7-si beşulduzlu olmaqla fəaliyyət göstərən 19 turizm istirahət mərkəzlərinə hesabat dövrü ərzində 88786 nəfər turist gəlmişdir.

İlin birinci yarısında Küveytin Azərbaycandakı səfiri, Belarusun nümayəndə heyəti, Hindistan Respublikasının səfiri, Almaniya Bundestaqının Sosial Demokratlar Partiyası fraksiyasının deputatı, Meksika Birləşmiş Ştatlarının səfiri, Vyetnamın nümayəndə heyəti tanışlıq məqsədilə Qəbələ rayonuna səfər etmişlər.

Səfər çərçivəsində qonaqlar rayonun tarixi yerləri və sənaye müəssisələri ilə yaxından tanış olmuşlar.

Bununla yanaşı hesabat dövründə Qəbələ şəhərində Azərbaycan, Türkiyə və Gürcüstanın Müdafiə nazirləri arasında keçirilmiş üçtərəfli görüşdə hərbi qurumların rəhbərləri tərəfindən regional təhlükəsizlik məsələləri, həmçinin ikitərəfli və üçtərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunmuşdur.

Azərbaycanda 5-ci Beynəlxalq Yoqa Gününün qeyd olunması layihəsi çərçivəsində Yoqa günü, “Dini ekstremizm - ictimai və mənəvi dəyərlərə təhlükə mənbəyi kimi” mövzusunda seminar-müşavirə, və AMEA-nın akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun Azərbaycan Coğrafiya Cəmiyyətinin (ACC) 80 illik yubileyi və X qurultayı keçirilmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

2018-2019-cu dərs ilini rayon təhsil müəssisələri də yüksək nəticələrlə başa vurmuşlar.

Ümumtəhsil məktəblərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Ən yaxşı təqdimat” müsabiqəsi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızda keçirilən “Ölkəmizi tanıyaq” tur-aksiyası çərçivəsində 15-18 mart tarixlərində Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy rayonlarının, 23-26 mart tarixlərində isə Ağdam, Ağcabədi, Ağstafa, Bərdə, Beyləqan, Daşkəsən, Qazax, Göyçay və Tovuz rayonlarının məktəbliləri Qəbələyə gəlmiş, rayonumuzla ətraflı tanış olmuşlar. 23-26 mart tarixlərində isə aksiyaya qoşulan Qəbələ məktəbliləri Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax və Ağstafa rayonlarına səfər etmişlər.

2019-cu ilin birinci yarısı ərzində rayonumuzda fəaliyyət göstərən 23 uşaq bağçasının maddi-texniki vəziyyəti daha da yaxşılaşdırılmış, ayrılmış vəsaitə uyğun olaraq yumşaq inventar alınaraq bütün uşaq bağçalarına verilmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

Qəbələ rayonunda fəaliyyət göstərən mədəni-maarif müəssisələrində 2019-cu ilin birinci yarısında bütün tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir çox maraqlı mədəni-kütləvi bədii proqramlar hazırlanmışdır.

Azərbaycanın 10 miliyonuncu sakininin dünyaya gəlməsi münasibətilə keçirilən geniş konsert proqramı daha yaddaqalan olımuşdur.

“Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında” Prezident cənab İlham Əliyevin 15 noyabr 2018-ci il tarixdə imzaladığı Sərəncama əsasən rayonun mədəni-maarif müəssisələrində ədibin yubileyinə həsr olunmuş əbədi-bədii gecələr, kompozisiyalar, dəyirmi masalar, sərgilər, rəsm müsabiqələri keçirilmişdir.

2019-cu ilin altı ayında Qəbələ Rayon Mərkəzi Xəstəxanasında stasionar xəstələrin sayı 1206 nəfər, cərrahi əməliyyatların sayı 96 olmuşdur.

Ambulator müraciət edən xəstələrin sayı 69830 nəfər təşkil etmişdir.

Müalicə Diaqnostika Mərkəzinin Konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 9376 nəfər, EKQ müayinələrinin sayı 2933, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 293 nəfər, stasionar şöbəyə daxil olan xəstələrin sayı 493 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 428, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 8976, kompüter tomoqrafik müayinələrin sayı 613, rentgen müayinələrin sayı 7996, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 2761 olmuşdur. Kliniki laboratoriyada 7967 xəstədə 270213 növ müayinə aparılmışdır.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə 6 ay ərzində 2163 nəfər müayinəyə cəlb olunmuşdur. Onlardan 259 nəfəri təhsil, 327 nəfəri səhiyyə işçiləri, 1577 nəfəri isə digər sahələrdə işləyənlərdir.

Ölkə başçısının tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin 12 fevral tarixindən 12 may tarixinədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilmiş və tərtib edilmiş qrafikə əsasən 18 yaşından yuxarı 65354 nəfər əhali müayinələrə cəlb olunmuşdur. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laborator-instrumental kabinetlər iştirak etmişdir. Müayinələrin nəticəsinə əsasən 3049 nəfərə ambulator, 325 nəfərə stasionar müalicə təyin olunmuş, 165 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Qəbələ Rayon Gigiyena və Epidemiologiya Mərkəzi ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr üzrə kompleks tədbirlər həyata keçirmişdir.

Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında difteriya, göy öskürək, tetanus, qızılça, parotit, məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 2019-cu ilin birinci yarımilliyi ərzində 36 tədbir həyata keçirilmişdir. Bunlardan 20 tədbir gənclərlə iş sahəsini, 16 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Həyata keçirilən tədbirlərin mahiyyət baxımından əhəmiyyəti dövlət siyasətinin düzgün təbliğinin təşkili, hüquq tərbiyəsi, cinayətkarlıq hallarına qarşı mübarizə, vətənpərvərlik tərbiyəsi işinin inkişaf etdirilməsi, gənclərin asudə vaxtlarının səmərəli təşkili, istedadlı gənclərin üzə çıxarılması, bədən tərbiyəsi və idman sahəsində isə yeniyetmə və gənc idmançıların aşkar olunması, idmanın kütləviliyinin təmin edilməsi, dərəcəli idmançıların hazırlanmasından ibarət olmuşdur.

Bununla yanaşı rayonda 2019-cu ilin birinci yarımili ərzində bir neçə beynəlxalq və respublika səviyyəli yarış keçirilmişdir ki, bunlardan “Gənc xilasedici” VII Beynəlxalq yarışı və “Gənc xilasedici və yanğınsöndürən” VII Ümumrespublika birinciliyi, Qəbələ Stend Atıcılığı Kompleksində Yeniyetmələrin XII Respublika Oyunlarının proqramına daxil olan güllə atıcılığı üzrə zona yarışı, “Tayboks” üzrə Yeniyetmələr arasında Azərbaycan birinciliyini və s. göstərmək olar.

Futbol üzrə Azərbaycan kubokunun final görüşündə "Qəbələ" futbol klubu "Sumqayıt" futbol klubunu məğlub edərək, ölkə kubokuna sahib olmuşdur. Beləliklə, “Qəbələ” tarixində ilk dəfə Azərbaycan kubokunun sahibi olmuş, bu münasibətlə Qəbələ Futbol Klubunun stadionunda böyük təqdimat mərasimi keçirilmişdir.

“Qəbələ Olimpiya İdman Kompleksi” MMC-də öz işini 2019-cu ilin birinci yarımilliyi idmanın inkişaf etdirilməsi, olimpiya hərəkatının genişləndirilməsi, gənclərin müntəzəm şəkildə idmana cəlb olunması, əhalinin bütün təbəqələri arasında sağlam həyat tərzinin formalaşdırılması və s. ilə bağlı fəaliyyət istiqamətləri üzrə təşkil etmişdir.

Hesabat dövrü ərzində kompleksin xidmətlərindən 631 nəfər gün istifadə edilmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 423 nəfər olmuşdur. Onlardan 123 nəfəri ödənişli əsasla, 300 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 2018-2019-cu tədris ilini bitirən məzunların sayı 186 nəfər olmuşdur. Ötən dərs ilindən etibarən Təhsil Mərkəzi lisey statusu ilə fəaliyyət göstərməyə başlamışdır. Hazırda 3 illik təhsil proqramları üzrə qəbul olunan tələbələr məktəbi bitirərkən peşə-ixtisası ilə yanaşı, həm də tam orta təhsil haqqında attestat ala biləcəklər. Bu da məzunların ali məktəblərə qəbul olması üçün şərait yaradır.

Bu tədris ilində işəgötürənlərlə iş sahəsində mərkəzin fəaliyyəti daha da gücləndirilmişdir. Belə ki, rayonda fəaliyyət göstərən özəl təşkilatlarla əməkdaşlıq barədə memorandum imzalanmış və tələbələrin istehsalat təliminin və təcrübəsinin təşkili üçün onlarla müqavilələr bağlanmışdır. Bu ildən “Gilan Aqriculture” paketinə daxil olan cəmiyyətlərin əksəriyyətində mərkəzin məzunları çalışır.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzini 2018-2019-cu tədris ilində 208 nəfər bitirmişdir. Təhsil müddəti 2 il olan qrup aşpaz və təhsil müddəti bir il olan qruplar isə mehmanxanada təsərrüfat işləri üzrə nəzarətçi, kompüter operatoru, aşpaz, ofisiant, barmen, bufetçi, oteldə konsiyerj, tədbir və mərasimlərin təşkili işi üzrə təşkilatçı, turizm agenti, qənnadçı, şirniyyatçı peşəsinə yiyələnmişlər.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin regiondakı fəaliyyət imkanlarından Milli QHT-lər faydalanmışlar. Mərkəzlə 2019-cu ilin 6 ayı ərzində 12 milli QHT əməkdaşlıq edərək vətəndaş cəmiyyətinin inkişafına xidmət edən layihələr həyata keçirmişlər.

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində ehtiyacı olan adamlara aktiv terapiya məşğələsi, psixoloji konsultasiya, inkişafetdirici məşğələ, loqopedik məşğələ, dil məşğələsi, rəqs məşğələsi və s. xidmətlər göstərilmişdir.

İlin əvvəlindən 35 ailəyə səfər edilmiş, 18 maarifləndirici tədbir keçirilmiş və bu tədbirdə 1611 nəfər vətəndaş iştirak etmişdir.

**Hörmətli tədbir iştirakçıları!**

Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyən edilmiş daxili və xarici siyasət xəttinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi Azərbaycanı dünyanın inkişaf etmiş ölkələri sırasına çıxartmışdır.

Prezident cənab İlham Əliyev öz çıxışlarında ölkə iqtisadiyyatının əsas inkişaf prioritetinin qeyri-neft sektorunun və ixrac yönümlü məhsulların istehsalı olduğunu qeyd etmişdir. Qeyri-neft sektoru sahələri arasında kənd təsərrüfatı məhsullarının istehsalı və ixracı əsas yerlərdən birini tutur.

Cənab İlham Əliyevin müşavirədə qeyd etdiyi kimi 2019-cu ilin ötən dövründə kənd təsərrüfatında artım 2,8 faiz olmuşdur. Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən ilə artır. Şübhəsiz ki, əldə olunan uğurların əsasında düşünülmüş siyasət, cəsarətli və fədakar fəaliyyət dayanır. Bu sahədə kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət büdcəsi vəsaiti hesabına subsidiyaların verilməsini nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Cənab Prezidentin həmin sərəncamı kənd təsərrüfatı məhsulları istehsalçılarında böyük stimul yaratmışdır. Bunun nəticəsidir ki, rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dəyişikliklər hiss edilir.

Həmin sərəncamın rayonda icrası ilə əlaqədar olaraq cari ildə kənd təsərrüfatı məhsulları istehsalçılarına əkin sahəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımın verilməsi üçün sənədlərin qəbuluna başlanılmışdır. Bundan əlavə güzəştli qaydalarla 712 nəfərə 1550 ton gübrə və 1250 nəfərə isə 6800 litr alaq otlarına qarşı və 240 litr vələmirə qarşı pestisidlər verilmişdir.

Dövlət büdcəsinin vəsaiti hesabına 2714 hektar sahədə, təsərrüfat subyektlərinin hesabına 910 hektar sahədə gəmiricilərə qarşı mübarizə tədbirləri aparılmışdır. Bundan əlavə 14250 hektar sahədə torpaq sahibləri tərəfindən alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilmişdir. 2920 hektar üzüm bağında, 5370 hektar meyvə bağında, 980 hektar bostan-tərəvəz sahələrində və 1203 hektar kartof sahələrində müxtəlif bitki xəstəliklərinə qarşı mübarizə tədbirləri görülmüşdür.

Rayonumuzun iqtisadiyyatında mühüm rol oynayan taxılçılıq sahəsində xeyli uğurlarımız olmuşdur. 2019-cu ilin məhsulu üçün 2018-ci ilin payızında rayonda 20190 hektar sahədə payızlıq taxıl əkilmişdir ki, onun da 15790 hektarını buğda, 4400 hektarını isə arpa sahələri təşkil etmişdir.

Məlum olduğu kimi yüksək məhsuldarlığın əldə olunmasında kondisiyalı toxum mühüm rol oynayır. 2019-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizinə gətirilmiş müxtəlif kənd təsərrüfatı bitkilərinin toxumları yoxlanılmış və onlara müvafiq rəylər verilmişdir. Rayonda fəaliyyət göstərən 6, o cümlədən: 2 hüquqi və 4 fiziki şəxsə məxsus toxumçuluq təsərrüfatlarının əkin sahələrinin 1718 hektarında abrobasiya aparılaraq ortaq məhsuldarlıq müəyyən edilmişdir. Biçilmiş toxumluq sahələrinin məhsuldarlığı 35-45 sentner olmuşdur. Qeyd etmək lazımdır ki, rayonda növbəti ilin taxıl əkini üçün kifayət qədər yüksək kondisiyalı toxum bazası mövcuddur.

Kənd təsərrüfatı məhsulları istehsalçıları tərəfindən cari ilin yazında 520 hektar kartof, 408 hektar tərəvəz, 592 hektar qarğıdalı, 2 hektar bostan bitkiləri,192,4 hektar şəkər çuğunduru, 802 hektar dənli və dənli paxlalı bitkilər və 339,5 hektar birillik ot əkilmişdir. Cari ilin altı ayında 15000 hektar buğda, 4400 hektar arpa sahəsi biçilmişdir. Məhsuldarlıq buğda sahələrində 32,5 arpa sahələrində isə 32,1 sentiner təşkil etmişdir.196 hektar sair dənli bitkilər, 100 hektar kartof və 235,5 hektar tərəvəz bitkiləri yığılmışdır. Həmin bitkilər üzrə məhsul yığımı davam edir.

Cənab İlham Əliyevin qeyd etdiyi kimi indi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. İxrac yönümlü kənd təsərrüfatı məhsulları istehsalının artırılması diqqət mərkəzində saxlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2016-cı il tarixli 2442 saylı sərəncamına əsasən fındıqçılığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi fermerlərdə yeni fındıq bağlarının salınmasına stimul yaratmış və bu sahədə rayonumuzda müəyyən işlər görülmüşdür.

Belə ki, fındıqçılığın inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda 2016-cı ilin payızından etibarən əlavə olaraq 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. Artıq son iki ildə 2002 hektar yeni fındıq bağları salınmışdır.

Uzun fasilədən sonra artıq bir neçə ildir ki, rayonumuzda barama və

(Ardı 8-ci səhifədə).